Novruz bayramınız mübarək!

• N11-12 (1162) • 18-30 mart 2021-ci il •

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

İLHAM ƏLİYEV: "SUSA BÜTÜN MÖVSÜMLƏRDƏ GÖZƏLDİR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.

Prezident İlham Əliyev deyib:

-Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, Zəfər yolu ilə gəlmişdik. Hələlik ancaq torpaq yoludur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanın qarlı, dumanlı dağlarıdır. Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalar başlanıldı və yaxın gələcəkdə layihə təqdim ediləcək.

Şuşa bütün mövsümlərdə gözəldir. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəliblər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verib. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.

Sonra dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxıblar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı ərazıyə gəliblər. Bildirilib ki, Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Karvansaray tarix-memarlıq kompleksinə baxıblar.

Dövlətimizin başçısına burada görüləcək işlərlə bağlı məlumat verilib.

Prezident İlham Əliyev: Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə etmişlər. İndi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış olublar. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyində də olublar. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Şuşada Park otelin yerləşəcəyi binaya da baxıblar. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına icra olunacaq layihələrlə bağlı məruzə edib.

Prezident İlham Əliyev Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verib.

Dövlət başçısı deyib: -Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz. Bu da Realni məktəbin dağılmış binasıdır, görün ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıb.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O, kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

Şuşaya "hələlik" deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan da Şuşanın qayaları gözəl görsənir. Çünki biz haqq yolundayıq, işimiz də haqq işidir. Təbiət də bizi salamlayır. Çünki bu Azərbaycan təbiətidir.

* * *

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verib.

PAŞA Bank

Azərbaycan xalqını NOVRUZ bayramı münasibəti ilə təbrik edir, hər bir ailəyə səadət və firavan həyat arzulayırıq!

"AZƏRBAYCAN ÖZ ƏRAZİ BÜTÖVLÜYÜNÜ BƏRPA EDƏRKƏN TARİXİ NAİLİYYƏTLƏRƏ İMZA ATMIŞDIR"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Füzuli və Xocavənd rayonlarında olarkən deyib.

Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.

Əvvəlcə Prezident İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub. Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yolboyunca avtomobil körpüləri inşa ediləcək.

* * *

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşüblər.

Prezidenti İlham Əliyev deyib: - Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası "Artsax dövləti" – cəhənnəmə getdi. "Dövlət" idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır.

* * *

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırıb və çıxış edib.

O, deyib: - Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı, mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı – Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

* * *

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoyub, keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında olublar.

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar.

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində olublar, daha sonra Azıx kəndinə yola düşüblər.

Dövlət başçısı deyib: - Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.

"İNDİ BİZ DİQQƏTİ GƏLƏCƏYƏ CƏMLƏŞDİRMƏLİYİK"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İsveçin Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib: - ATƏT Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilatdır. Beləliklə, indi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün sizinlə gələcək işlərin necə qurulması ilə bağlı fikirlərimizi müzakirə etdik. Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu, çox mühümdür.

Bizə gəlincə, biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir. Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik. Bilirəm ki, bu günlərdə çox məşğulsunuz, çox ölkəyə səfər edirsiniz. Mən sizi Azərbaycanda görməyə çox şadam. Ümidvaram ki, ölkəmizə səfəriniz çox məhsuldar olacaq.

Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu region üçün strateji əhəmiyyət daşıyacaq

"Martın 15-də təməli qoyulan və uzunluğu 43 kilometr olacaq Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu region üçün strateji əhəmiyyət daşıyacaq."

Bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Deputat qeyd edib ki, bu yol başlanğıcını Azərbaycanın tarixi ərazisi olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən, yəni Hadrut yaşayış məntəqəsindən götürəcək və işğaldan azad olunan digər bölgələri birləşdirəcək. Belə ki, 4 hərəkət zolaqlı yol Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndinədək uzanacaq. Digər tərəfdən, yeni yol Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşəcək. Praktik olaraq Zəngəzur dəhlizi vasitəsilə "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Yol dəhliz vasitəsilə həm də Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən iş adamları ilə Naxçıvandakı iş adamları arasında əlaqələrin, əməkdaşlığın qurulması baxımından vacibdir ki, bu da qısa vaxtda məhsulların nəql edilməsinə imkan yaradacaq. Bunun Azərbaycanın iqtisadi inkişafına, eləcə də işğaldan azad olunan ərazilərimizin və Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına müsbət təsirləri olacaq.

Azərbaycanın ən çox xam neft və neft məhsulları ixrac etdiyi ölkələrin adları açıqlanıb

Yanvar-fevral aylarında Azərbaycan ən çox İtaliyaya bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edib. Həmin ixracın həcmi 2 milyon 930 min ton, dəyəri isə 1 milyard 40,2 milyon ABŞ dolları olub.

Bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb.

İki ayda ölkəmizdən Hindistana 215,9 milyon dollarlıq 574 min ton, İspaniyaya 175,5 milyon dollarlıq 507,4 min ton, Portuqaliyaya 123,6 milyon dollarlıq 312,2 min ton, Ukraynaya 111,4 milyon dollarlıq 339,3 min ton, Çinə 102,5 milyon dollarlıq 277,5 min ton, Xorvatiyaya 61,8 milyon dollarlıq 187,1 min ton, İsrailə isə 39,8 milyon dollarlıq 122,2 min ton xam neft və xam neft məhsulları ixrac edilib.

Xatırladaq ki, hesabat dövründə Azərbaycandan ümumilikdə 5 milyon 694,2 min ton xam neft və xam neft məhsulları ixrac edilib, ixracın dəyəri 2 milyard 44,4 milyon dollar olub.

Azərbaycan fevralda "OPEC+" üzrə öhdəliyini yerinə yetirib

Fevral ayında ölkə üzrə gündəlik neft (kondensatla birlikdə) hasilatı 741 min barel olub.

Energetika Nazirliyindən bildirilib ki, bunun 593 min barelini xam neft, 148 min barelini isə kondensat təşkil edib.

Qeyd edək ki, "OPEC+" ölkələri nazirlərinin 13-cü və 14-cü iclaslarında gündəlik xam neft hasilatı üzrə mövcud kvotaların fevral, mart və aprel aylarında davam etdirilməsi ilə bağlı razılaşma əldə edilib. Qərarlara əsasən, Azərbaycanın qeyd edilmiş dövr üzrə öhdəliyinin yanvar ayında olduğu kimi 123 min barel həcmində qalacağı nəzərdə tutulub. Gündəlik xam neft hasilatı isə 595 min barel səviyyəsində saxlanılacaq.

"OPEC+" ölkələrinin gündəlik xam neft hasilatı üzrə ixtisarları isə apreldə 6,9 milyon barel təşkil edəcək.

MİLLİ MƏCLİSDƏ NAZİRLƏR KABİNETİNİN 2020-Cİ İLDƏ FƏALİYYƏTİNƏ DAİR HESABATI DİNLƏNİLİB

Martın 16-da Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.

İclası açan **Milli Məclisin sədri Sahibə Qafarova** bildirib ki, bu gün Milli Məclisin yaz sessiyasının beşinci iclasıdır və Konstitusiyaya uyğun olaraq Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir.

Sədr diqqətə çatdırıb ki, 2020-ci il ölkəmizin dövlətçilik və müstəqillik tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın apardığı 44 günlük Vətən müharibəsi Zəfərlə başa çatıb, dövlətimizin ərazi bütövlüyü təmin olunub.

Sədr qeyd edib ki, 2020-ci ildə bütün dünya, o cümlədən Azərbaycan COVID-19 pandemiyası ilə mübarizə şəraitində yaşayıb. Buna baxmayaraq, ölkəmiz bu ağır vəziyyətdən nisbətən az itkilərlə çıxa bilib. Koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan şəxslərə və işsizlərə ünvanlanan irimiqyaslı sosial paket icra olunub. Sahibkarlara vergi güzəştləri tətbiq edilib. Belə bir çətin ildə qeyri-neft sənayesinin 11 faiz artması məhz dövlət tərəfindən həyata keçirilən düşünülmüş tədbirlərin nəticəsində mümkün olub.

Sədr qeyd edib ki, bu günlərdə daha bir sevindirici məlumat almışıq. Suveren fondların şəffaflıq və hesabatlılıq istiqamətində fəaliyyətini dəyərləndirən ABŞ-ın Beynəlxalq İqtisadiyyat üzrə nüfuzlu Peterson İnstitutunun tərtib etdiyi və ötən ay nəşr etdiyi 2019-cu il üzrə qiymətləndirmə cədvəlində Azərbaycan Respublikasının Dövlət Neft Fondu 64 suveren fond arasında 5-ci yerə yüksəlib. Əlamətdar haldır ki, aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi islahatları yüksək qiymətləndirirlər. Görülən tədbirlərin nəticəsidir ki, Dünya Bankının "Doing Business" hesabatında ölkəmizin reytinqi daim yüksəlir. Artıq Azərbaycan bu reytinqdə 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Eyni zamanda, ölkəmiz dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilib.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib.

Baş nazir Əli Əsədovun çıxışından:

- 2020-ci il Azərbaycan Respublikasının şanlı dövlətçilik və müstəqillik tarixində möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın Müzəffər Ordumuz tərəfindən azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə əlamətdar olmuşdur.

2020-ci il COVID-19 pandemiyasının yaratdığı fəsadlara baxmayaraq, bir sıra mühüm siyasi, iqtisadi və sosial hadisələrlə yadda qalmışdır.

VI çağırış Azərbaycan Respublikası Milli Məclisinə demokratik şəraitdə keçirilmiş seçkilər ötən ilin mühüm siyasi hadisələrindən biri olmuşdur. Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşmışdır.

Hesabat ilində strateji layihələrin icrası, sosial-iqtisadi və digər islahatların həyata keçirilməsi sahəsində aparılan məqsədyönlü işlər davam etdirilmişdir. Ötən ilin son günlərində Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP-ın istismara verilməsi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Avropaya ixracına başlandı. Bir çox ölkələri birləşdirən Cənub Qaz Dəhlizi, cənab Prezidentin qeyd etdiyi kimi, Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur.

2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdədir.

Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra pozisiyalar üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən, elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir.

Ötən il həm də bütün dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizə və onun neqativ təsirlərinin aradan qaldırılması məqsədilə davamlı tədbirlər həyata keçirilmişdir. Bu xəstəliyə qarşı mübarizənin səmərəli və koordinasiyalı şəkildə aparılması üçün Prezidentin Sərəncamı ilə Operativ Qərargah yaradılmışdır.

Cənab Prezidentin Fərmanı ilə yaradılmış xüsusi dəstək fonduna 114 milyon manatdan artıq vəsait yığılmışdır. Fondun vəsaitindən istifadə olunaraq koronavirusa qarşı peyvəndlər artıq alınmış, ölkəmizə gətirilmiş və yanvar ayının 18-dən vaksinasiya prosesinə başlanılmışdır.

2020-ci ildə pandemiyanın təsirlərinin azaldılması üçün sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi üçün 461 milyon manat, sərnişindaşıma fəaliyyəti göstərən nəqliyyat sektorunun dəstəklənməsi üçün 277 milyon manat, güzəştli ipoteka kreditləri üzrə ayrılan vəsaitin artırılması üçün 90 milyon manat yönəldilmiş, 115 milyon manat həcmində vergi güzəştləri təqdim edilmişdir. Ümumilikdə məşğulluq və sosial rifaha dəstək bölməsi üzrə 610 milyon manat vəsait xərclənmişdir.

Bütövlükdə isə, pandemiyanın milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci ilin dövlət büdcəsi və digər mənbələr hesabına iqtisadiyyata toplam olaraq təxminən 2,5 milyard manat həcmində dəstək göstərilmişdir.

2020-ci ildə ölkədə 72,4 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,3 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Ötən il sənaye istehsalı 5 faiz azalmışdır. Bu azalma "OPEC+" ölkələri tərəfindən neft hasilatı üzrə qəbul edilən məhdudiyyətlər səbəbindən baş vermişdir. Lakin sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 12,5 faiz artmışdır. Neft-qaz hasilatında 8 faiz azalma olsa da, qaz hasilatı 4,3 faiz və qaz ixracı isə 16 faiz artmışdır.

2020-ci ildə elektrik enerjisinin istehsalı 25,8 milyard kVt/st (istehlakı isə 22 milyard kVt/st) olmuşdur. Respublikanın enerji sistemində reabilitasiya proqramının həyata keçirilməsinə başlanılmışdır. Xarici tərəfdaşlar cəlb edilməklə bərpaolunan enerji növləri üzrə elektrik stansiyalarının tikintisinə dair müqavilələr həyata keçirilir.

2020-ci ildə pandemiyaya və xarici mühitin pisləşməsinə qarşı hökumətin gördüyü tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin edilmişdir. Belə ki, istehlak qiymətləri indeksi mövcud iqtisadi problemlər fonunda yüksək olmamışdır. Həyata keçirilən tədbirlər, o cümlədən monetar siyasət və manatın məzənnəsinin sabitliyi inflyasiyanı minimal 2,8 faiz səviyyədə saxlamağa imkan vermişdir.

Ötən il ödəmə qabiliyyətini itirmiş 4 bankın lisenziyası ləğv edilmişdir. Ümumilikdə 4 bank üzrə bu günədək 24,5 minə yaxın əmanətçiyə 628 milyon manat məbləğində qorunan əmanətləri üzrə kompensasiya ödənilmişdir. Beynəlxalq konyunkturun əlverişsiz olmasına baxmayaraq, ölkənin strateji valyuta ehtiyatları ötən il ərzində 51,2 milyard dollara çataraq ÜDM-nin həcmini üstələmişdir. 2020-ci il üzrə birbaşa xarici dövlət borcu ÜDM-in 19 faizini təşkil edir ki, bu da iqtisadi təhlükəsizlik meyarlarına tam cavab verir. Xarici ticarət dövriyyəsinin azalmasına baxmayaraq, ticarət saldosu müsbət 3 milyard dollar olmuşdur. 2020-ci ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 11,4 faiz artaraq 707 manat təşkil etmişdir.

Ötən il bütün sosial ödənişlər vaxtında və tam şəkildə həyata keçirilmişdir. Aparılan islahatlar nəticəsində Azərbaycanda orta pensiyanın məbləği təxminən 300 manata, yaşa görə pensiyanın orta məbləği isə 330 manata çatmışdır. Pensiyaların orta aylıq məbləği 13 faizdən çox artmışdır. Ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralıların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondu yaradılmışdır.

İcbari tibbi sığorta sisteminin qurulması institusional islahatların mühüm istiqamətlərindən birini təşkil edir. Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq 2020-ci il 1 yanvar tarixindən etibarən icbari tibbi sığortanın ilkin mərhələdə Naxçıvan Muxtar Respublikasında və 23 inzibati ərazi vahidində tətbiqinə başlanılmışdır. Bu proses ölkənin digər 36 şəhər və rayonunu əhatə etməklə 2021-ci ildə də mərhələli olaraq davam etdiriləcək.

Aqrar sektor hesabat ilində də prioritet sahə olaraq diqqət mərkəzində saxlanılmışdır. Ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq 402,7 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2019-cu illə müqayisədə 63,3 milyon manat və ya 18,7 faiz çoxdur. 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilən yeni mexanizmə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiyanın verilməsinə başlanılmışdır. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədəki nitqində cənab Prezident hökumətin qarşısında iqtisadi sahədə duran vəzifələri və prioritetləri dəqiq qeyd etmişdir. 2021-ci il və qarşıdakı dövr ərzində büdcə vəsaitlərindən səmərəli və qənaətli istifadə olunması, izafi xərclərin qarşısının alınması üçün maliyyə intizamı və nəzarət daha da gücləndiriləcəkdir.

Azərbaycan 2021-2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olur. Hazırda postpandemiya dövrünə ciddi hazırlıq işləri görülməkdədir. Cənab Prezident tərəfindən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə Sərəncam imzalanmış, hökumətə "2021-2025-ci illərdə Sosial-iqtisadi inkişaf strategiyası"nın hazırlanması ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Artıq hökumət tərəfindən bu istiqamətdə Komissiya və alt işçi qrupları yaradılaraq müvafiq işlərə başlanılmışdır.

Təəssüf ki, qədim tarixə, unikal maddi və mədəni irsə, özünəməxsus flora və faunaya, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağ otuz ilə yaxın müddət ərzində düşmən tərəfindən amansız, vəhşicəsinə istismar edilmişdir. Lakin biz işğaldan azad edilmiş yerlərə həyatı qaytaracağıq, bütün viran qalmış yerləri bərpa edəcəyik.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı vəzifələrin icrası üçün 2021-ci ilin dövlət büdcəsində ilkin olaraq 2,2 milyard manat maliyyə təminatı yaradılmışdır. Təbii ki, bu istiqamətdə atılacaq ən birinci və önəmli addım azad olunmuş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsidir. ANAMA-nın yenidən təşkili bu istiqamətdə işlərin keyfiyyətcə yeni səviyyədə aparılması baxımından böyük əhəmiyyət kəsb edir.

Ötən il noyabrın 6-da cənab Prezident 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq və onun icrasını təmin etmək məqsədilə yaradılmış Dövlət Komissiyası tərəfindən zərər çəkmiş evlərin tikintisinin və bərpasının qısa müddət ərzində başa çatdırılması üçün tədbirlər görülməkdədir.

Bütün iqtisadi və nəqliyyat əlaqələrinin, kommunikasiyaların bərpa edilməsi regionda davamlı sülhün və inkişafın təmin edilməsi üçün olduqca vacibdir. Bu məsələ Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr tarixli bəyanatında təsbit edilmişdir. Azərbaycanı öz ayrılmaz hissəsi olan və uzun illər blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyət kəsb edir. Bu məsələlərin koordinasiyalı və operativ həlli məqsədilə üç ölkənin Baş nazir müavinlərinin rəhbərliyi ilə yaradılmış işçi qruplar artıq əməli fəaliyyətə başlamışlar.

Eyni zamanda, bildiyiniz kimi, Prezident İlham Əliyev Cənubi Qafqazda yeni formatda əməkdaşlıq platformasının yaradılması təşəbbüsünü irəli sürmüşdür. Əminik ki, bu platforma regional əməkdaşlığın inkişaf etdirilməsinə təkan verəcəkdir və bütün bölgə ölkələri üçün faydalı olacaqdır.

* * *

Daha sonra Milli Məclisin üzvləri Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabat barədə fikirlərini bildiriblər.

Qarabağ regionunda ərzaq təhlükəzisliyinin təmin edilməsində təbii inkişaf amillərinin rolu

44 günlük Vətən müharibəsində şanlı ordumuzun böyük zəfəri bütöv Azərbaycan sərhədlərini bütün dünyaya bir daha tanıtdı. Ali Baş Komandanın hər dəfə şəhər və kəndlərimizin geri alınması haqda verdiyi qələbə xəbərləri bizi qürurlandırdı, xüsusilə Şuşanın işğaldan azad olunması ilə bağlı xalqa müraciətində "Əziz Şuşa, sən azadsan, biz səni dirçəldəcəyik" sözləri hər bir Azərbaycanlıda kövrək hislərlə bərabər, Qarabağda həyatın, mədəniyyətimizin, tariximizin bərpasına, iqtisadiyyatımızın bütün sahələrinin dirçəldilməsinə böyük inam yaratdı. Beləliklə, böyük Zəfər milli təhlükəsizliyimizi təmin etdi. Qarşıda duran mühüm məsələ isə Qarabağda iqtisadi təhlükəsizliyin və onun ən vacib sahəsi kimi ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görüləcək işlərdir.

Qeyd edim ki, müstəqil ölkəmizdə ilk dəfə 2001-ci ildə Ərzaq təhlükəsizliyi proqramı – yəni ölkə əhalisinin aktiv şəkildə öz həyat fəaliyyətini davam etdirməyə imkan verən, fizioloji normalara uyğun təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin olunması Dövlət Proqramı qəbul edilmişdir. 2004-cü ildən başlayaraq qəbul olunan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icra edilməsi isə regionlarda aqrar sahənin inkişafını sürətləndirməklə bərabər, ölkənin ərzaq təhlükəsizliyi dayaqlarını daha da möhkəmləndirir.

Azərbaycanda real vəziyyət

(2019-cu ildə ölkəmizdə əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi mal əti üzrə 86%, qoyun əti-97%, süd və süd məhsulları 86%, yumurta 101,8%, kərə yağı 69,5%, buğda 57%, arpa 100%, qarğıdalı 82%, meyvə-giləmeyvə 123%, tərəvəz 112%, kartof 87,8%, pomidor 132%, üzüm 94% olmuşdur).

2020-ci ilin qlobal pandemiya ili olduğunu nəzərə alsaq, deyə bilərik ki, Covid-19 dünya ölkələrini bürüdükcə onlar arasında sərhədlər qapandı, iqtisadi-ticarət əlaqələri zəiflədi. Pandemiya dövrünün ən mühüm çağırışı hər bir ölkənin idxaldan asılı olmadan və öz daxili mənbələri hesabına əhalisini fasiləsiz olaraq ərzaqla təmin etmək oldu. Bununla belə, ötən ilin sosial-iqtisadi inkişafının nəticələrinə dair müşavirədə bildirildi ki, ölkəmizdə kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası 2020-ci ildə də davam edib və bu sahə üzrə 2 faiz artım, bitkiçilikdə 1 faiz və heyvandarlıq üzrə 2,9 faiz artım olub. Pandemiya dövründə aqrar sektorun fəaliyyəti mövcud çağırışlara uyğun qurulub və kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilib.

Təəssüf ki, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində çətinliklər yaradan səbəblər arasında siyasi və hərbi münaqişələri, məcburi miqrasiyaları da qeyd etməliyik. Məhz buna görə də düşmən təcavüzünə məruz qalmış ərazilərimizdə kənd təsərrüfatının bərpası və yenidən qurulması istiqamətində qarşıda yeni çağırışlar durur. Bunun üçün qısaca da olsa, bu ərazilərin coğrafi yerləşməsi və təbii landşaftına nəzər salaq. Məlumdur ki, hər regionun özünəməxsus təbii-iqlim şəraiti, coğrafi mühiti burada fərqli kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə imkan verir.





Qarabağ zonasının təbii inkişaf amilləri

Mürəkkəb dağ relyefinə malik olan Qarabağ Azərbaycanın yeraltı və yerüstü təbii sərvətləri ilə zəngin ərazilərilərindən biridir. Burada qızıl, gümüş, civə, filiz, qeyri-filiz və digər mineral yataqlar, zəngin mineral su ehtiyatları, İstisu, Turşsu və başqa qiymətli mineral su mənbələri, eləcə də kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün əlverişli şərait olmuşdur. Bu da Qarabağ bölgəsinin böyük iqtisadi potensiala malik olduğunu göstərir. Mənfur qonşuların torpaqlarımızı zəbt etməsi səbəblərindən biri də məhz bu olmuşdur. Qarabağda sənayenin bir sıra sahələri üzrə müəssisələr fəaliyyət göstərmiş, eyni zamanda, Qarabağın ayrı-ayrı rayonlarının iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisi müxtəlif olmuşdur.

1988-ci ildə ölkə əhalisinin 2%-nin yaşadığı DQMV-də respublikanın ümumi kənd təsərrüfatı məhsullarının 5%-i istehsal edilirdi.

Lakin qeyd etmək lazımdır ki, ümumilikdə Qarabağın dağlıq ərazisində, mürəkkəb relyef şəraitində digər aran rayonlarına nisbətən əkinçilik imkanları məhdud olmuşdur. Akademik Z.Səmədzadə tədqiqatlarında göstərirdi ki, hələ işğaldan öncə kənd təsərrüfatına yararlı 398 min ha torpaq sahəsinin cəmi 118 min hektarı əkin üçün istifadə olunurdu. Rayonlar üzrə bu göstərici də xeyli fərqli idi. Kəlbəcər rayonunda cəmi əkin sahəsi kənd təsərrüfatına yararlı torpaq sahəsinin 7,9%-ni, Laçında 15,3%, Füzuli rayonunda 33,7%, Ağdamda 42,7%-ni təşkil edirdi. Belə bir fərq Kəlbəcər-Laçın iqtisadi rayonunda yüksək dağlıq sahələrin daha çox olması ilə bağlı idi. Ərazinin iqlimi, relyefi kənd təsərrüfatının ixtisaslaşmasını zəruri edirdi. Bu ərazilər heyvandarlığın inkişafı üçün daha əlverişli şəraitə malik idi. Kənd təsərrüfatının ümumi məhsulunda heyvandarlığın payı ən azı 65-70% təşkil etmişdir.



O dövrün hesablamalarına görə respublikada istehsal olunan baramanın 11%, taxılın 2%, tütünün 7%, ət və südün 7,5-9%-i Kəlbəcər – Laçın iqtisadi rayonunun payına düşürdü. Bu torpaqların zəngin təbiəti, yaylaqları, otlaqları burada ət və süd təmayüllü qaramal təsərrüfatı və qoyunçuluğun inkişafı üçün münbit şərait yaradırdı.

Maraqlı faktı diqqətə çatdırmaq istərdim: Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları kəndlərdə qoyunçuluğun inkişafına mane olurdular. Azərbaycanlıların Qarabağdan qovulması siyasətinin fəal təşkilatçılarından biri hesab edilən B.Arutyan (vilatəyin partiya nəzarəti komitəsinin sədri) özünün 1990-cı ildə Yerevanda nəşr edilən "Dağlıq Qarabağda hadisələr" kitabında yazırdı ki, vilayətdə qoyunçuluq rentabelli deyil, burada 100 mindən artıq qoyun və keçi saxlamaq olmaz, onların sayı 2,6 dəfə azaldılmalı, donuzçuluq inkişaf etdirilməlidir.

Qarabağın sürətlə inkişaf edən rayonlarından biri də Füzuli rayonu idi ki, burada üzümçülük inkişaf etdirilirdi. Bu rayonda 1991-ci ildə 114 min ton üzüm istehsal olunmuşdu ki, bu da respublika üzrə üzüm istehsalının 11%-ni təşkil edirdi. Regionda mövsüm üzrə üzüm emal edən ilkin şərab zavodu, ağ şirin çaxır, şərab-konyak zavodları, mineral su dolduran zavod, süd emalı zavodu, yağ-pendir zavodu, ət kombinatı və çörək zavodları fəaliyyət göstərirdi. Ağdərədə arıçılıq inkişaf edirdi. Eləcə də, Qarabağda ipək kombinatı fəaliyyətdə idi, baramaçılığın, tütünçülüyün, kartofçuluğun inkişafı genişlənirdi. Bu yerlərin səfalı dağ havası, şirin suları, nadir müalicəvi mineral suları, qışda sərt, yazda xoş iqlimi özü bir məlhəm idi. Sakinlərin yerli istehsal hesabına təbii, ekoloji təmiz məhsullar ilə qidalanması regionda uzunömürlü insanların sayına təsir edən başlıca amillərdən idi.

Hazırki vəziyyət - ekoloji terror

30 ilə yaxın müddətdə düşmən tərəfindən şəhərlər, kəndlər, yaşayış məntəqələri, yollar, körpülər dağıdılmış, elektrik və qaz xətləri, su qovşaqları məhv edilmişdir. İşğalçı qonşular Sərsəng, Suqovuşan su anbarlarının olmasına baxmayaraq, suyu kəsərək 100 min hektar torpağı susuz qoymuşlar.

İşğaldan azad edilmiş ərazilərmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aşkar etdiyi kütləvi ekoloji terror faktlarına görə nadir ağac və bitki növləri, o cümlədən çinar və şam meşələri dağıdılıb. Burada 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, indi azad edilmiş ərazilərdə isə cəmi 174 min hektar qalmışdır. Yəni, 54 min hektar meşə fondu məhv edilib və bu, erməni cinayətinin növbəti nümunəsidir. Döyüşlər zamanı işğalçı ordunun qadağan olunmuş fosfor bombalardan istifadə etməsi nəticəsində ərazilərdə, demək olar ki, hər şey məhv edilmişdir. Azərbaycanın işğal edilmiş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində təxminən 110 min hektar ərazi sıradan çıxmışdır.

Görüləcək tədbirlər

2021-ci ilin təsdiq olunmuş dövlət büdcəsində məqsədli olaraq bərpa, yenidənqurma işlərinin aparılması, eyni zamanda, Qarabağ regionunun Azərbaycan iqtisadiyyatına reinteqrasiyasının təmin edilməsi üçün 2,2 milyard manat vəsait nəzərdə tutulub.

İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası hazırlanır ki, burada kompleks yanaşmanı təmin etmək üçün 4 mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur: idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həlli, sosial xidmətlərin fəaliyyəti, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsi.

Hər bir bölgəmizin təbii ehtiyatlarını, ənənəvi iqtisadiyyat sahələrini, nəqliyyat qovşaqlarını, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq, hər bir iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. İnvestisiya layihələrinin həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq olunması məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiqi təklif olunur.

Prezident İlham Əliyev: Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var. Kəlbəcər, Laçın rayonlarında çox böyük örüş sahələri, otlaq sahələri vardır. Azad edilmiş torpaqlarda sovet dövründə taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq, bağçılıq, heyvandarlıq çox geniş vüsət almışdı. Ümumiyyətlə, azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kənd təsərrüfatı, kənd təsərrüfatı emalı və turizm sahələri olmalıdır ki, biz bu bölgənin təbiiliyini qoruya bilək.

İlk növbədə, azad edilmiş torpaqlarda ərazilər minalardan təmizlənir və artıq müəyyən dərəcədə işlər görülüb. Orada olan böyük əkin sahələrində keçən il və bu il müəyyən dərəcədə payızlıq əkini aparılır. 2020-ci ildə ümumi ölkə üzrə 1 milyon hektardan artıq sahədə taxıl əkini həyata keçirilib və işğaldan azad edilən ərazilər hesabına növbəti illərdə bu sahənin əkin balansının təqribən 10 faiz artırılması nəzərdə tutulub.

Məskunlaşma prosesi başlayandan sonra kənd təsərrüfatı ilə məşğul olacaq sakinlərin aqrar texnika, toxum, gübrə və digər lazımi vasitələrlə təmin edilməsinə dair planlar hazırlanıb. Regionda aqrar sektorun mütəxəssislərlə təmin edilməsi üçün indidən müvafiq təşkilati tədbirlərin görülməsinə ehtiyac vardır. Yerli ixtisaslaşmanı nəzərə almaqla peşə hazırlığını təkmilləşdirmək lazımdır. Regionda ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı üçün də böyük potensial var. Kənd Təsərrüfatı Nazirliyi "Azərkosmos" ASC ilə birlikdə faktiki əkinaltı torpaqların da peyk təsvirləri əsasında xəritələşməsini aparmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərdə ekoloji fəlakətin qarşısının alınması istiqamətində işlərə başlanılıb, minalardan təmizlənmiş bir çox ərazilərdə ağacəkmə kampaniyalarına start verilib.

İnfrastruktur layihələrinin icrası

Regionda artıq bir çox enerji layihələrinin həyata keçirilməsinə başlanır, bank-maliyyə sektorlarının filialları, rabitə xidmətləri açılır, sosial xidmət sektorları fəaliyyətə başlayır, dağıdılmış yollar, körpülər, nəqliyyat dəhlizləri, bərpa olunur, digər quruculuq işləri həyata keçirilir.

Respublika ərazisinin 20%-ni təşkil edən azad olunmuş şəhər və rayonlarda iqtisadi həyatı bərpa etmək üçün ən azı 3-4 min meqavat gücündə enerji potensialının yaradılması tələb ediləcəkdir. Dövlət başçısının tapşırığı ilə burada ənənəvi elektrik stansiyalarının, ilk növbədə su elektrik stansiyalarının tikilməsi ilə yanaşı, alternativ enerji mənbələrinin (günəş, külək) istifadəyə verilməsi ilə bağlı layihələrin həyata keçirilməsi nəzərə tutulur. Mütəxəssislərin hesablamalarına görə Qarabağ regionunda alternativ enerji mənbələrinin xüsusi çəkisi yaxın 10 ildə 30-40% təşkil edə bilər.

Qarabağ bölgəsi su ehtiyatları ilə zəngindir. Ölkə üzrə daxili su mənbələrinin 25%-i bu ərazilərin payına düşür. Nəhayət, uzun fasilədən sonra Qarabağın su ehtiyatlarının və bundan istifadə məsələlərinin yenidən qiymətləndirilməsi diqqət mərkəzində olacaq.

Proqnozlar deməyə əsas verir ki, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaq. Ölkəmizin ərzaq balansı bu ərazilərin inteqrasiyası nəticəsində yenilənəcək və inkişaf edəcək.

Səmədzadə Aytən, i.f.d.
AR Odlar Yurdu Universiteti və Azərbaycan İqtisadçılar İttifaqı:
"Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin Azərbaycan iqtisadiyyatına inteqrasiyası: konseptual baxış" mövzusunda onlayn respublika elmi-praktik konfransının materialları

Metallurgiya sənayesində 119,2 milyon manatlıq məhsul istehsal olunub

Bu ilin yanvar-fevral aylarında metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 119,2 milyon manatlıq məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, sözügedən müddət ərzində metallurgiya sənayesində 6,1 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 20,2 faiz azalma müşahidə olunub. Sahə üzrə 4 min 886,6 ton qara metallardan digər konstruksiyalar istehsal edilib.

İki ayda polipropilen ixracı artıb

Yanvar-fevral aylarında Azərbaycandan 18,5 min ton polipropilen ixrac edilib.

Dövlət Gömrük Komitəsindən (DGK) bildirilib ki, ixrac edilən polipropilenin dəyəri isə 19,7 milyon ABŞ dolları olub.

Xatırladaq ki, ötən ilin müvafiq aylarında 14,4 milyon dollarlıq 17,4 min ton polipropilen ixrac edilib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi üzrə inşa olunan polipropilen zavodunun illik istehsal gücü 184 min tondur. Zavodun açılışı 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə olub. Həmin il oktyabrın 5-dən polipropilenin ixracına başlanılıb.

HƏRB MEYDANININ QALİBİ OLAN İLHAM ƏLİYEV İNFORMASİYA MÜHARİBƏSİNDƏ DƏ ERMƏNİSTANI MƏĞLUB ETDİ

(əvvəli ötən sayımızda)

Azərbaycanda muzdlu döyüşçülərin olduğunu deyənlər heç bir sübut və dəlil ortaya qoya bilmədilər

Azərbaycana ünvanlanan başqa bir ittiham respublikamızın guya xarici ölkələrdən muzdlu döyüşçüləri cəlb etməsi barədə idi. Bununla da məqsəd Azərbaycanın terrorçu təşkilatlarla əməkdaşlıq etdiyini göstərmək idi. Məlum olduğu kimi, bu məsələni hətta Fransa prezidenti E.Makron da iddia etmiş, lakin ortaya bir fakt qoya bilməmişdi. Ümumiyyətlə, Fransa prezidentinin hərbi əməliyyatların başladığından bəri tutduğu mövqe və verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına zidd olmaqla neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulması idi. Makronun heç bir diplomatik və vasitəçilik missiyasına cavab verməyən mövqeyi, həm də Fransada qarşıdan gələn seçkilərlə bağlıdır və bu ölkədə yaşayan erməni diasporunun seçkilərinin qazanılmasına yönəlib. Bu baxımdan Makron müharibə günlərində vasitəçiliklə deyil, seçki kampaniyası ilə məşğul oldu, Azərbaycana qarşı ittihamlarla çıxış etməklə Fransadakı erməni seçicilərinin səsi uğrunda mübarizə apardı.

Azərbaycanın II Qarabağ müharibəsində muzdlu döyüşçülərdən istifadə etməsini iddia edənlərdən birincisi də E.Makron olmuşdu. Lakin o bu məsələdə aşağı səviyyəli sarı mətbuatın yaydığı feyk xəbərlərə istinad etmiş və heç bir fakt göstərə bilməmişdi. Sarı mətbuatın məlumatının Fransa kimi ölkənin başçısının dilindən səslənməsi isə bu dövlətə başucalığı gətirmədi.

Prezident İlham Əliyevin xarici KİV-ə müsahibələri zamanı bu məsələni ilk dəfə ötən il oktyabrın 9-da "CNN International" televiziya kanalı gündəmə gətirmişdi. Təsadüfi deyil ki, jurnalistin ilk sualı da bu mövzuda idi. Hər bir jurnalistin ən böyük silahı faktdır. Amma "CNN International" kanalının bu barədə sualının məzmunundan göründü ki, jurnalist heç bir fakta istinad etmir və yalnız proseslərdən ümumiyyətlə kənarda olan Ermənistan prezidentinin sözlərinə əsaslanır: «**Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?».**

Prezident İlham Əliyev suala cavab verməklə, həm də dolayısı ilə kanalın şayiə yaydığını söylədi. Azərbaycanın heç bir xarici hərbi qüvvədən istifadə etmədiyini birmənalı şəkildə bildirən Prezident İlham Əliyev, eyni zamanda, vaxtilə Ermənistanın Azərbaycan ərazilərini xarici havadarlarının köməyi ilə işğal etdiyini bildirərək, jurnalisti fakt qarşısında qoydu və həm dünya ictimaiyyətini bir daha bu barədə məlumatlandırdı. «**Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur. Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki sizin mənə təqdim etdiyiniz kimi, mən onun dediklərini görməmişəm, lakin mənim sizdən eşitdiklərim tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər. Mən, həmçinin Ermənistanın prezidentinə 1990-cı illərin əvvəlində Ermənistan bizim torpaqları işğal etdikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan tərəfindən "Azərbaycana kimsə kömək edir" demək tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik»** cavabından sonra jurnalist bir daha Azərbaycanı muzdlulardan istifadədə ittiham edə bilmədi.

Azərbaycanda türk silahlarının olmasına gəldikdə isə Prezidentin cavabı olduqca müdrik oldu. Bəli, Azərbaycanda təkcə türk silahları yox, həm də rus, İsrail, Belarus, Ukrayna silahları var və həmin silahları Azərbaycan Ermənistandan fərqli olaraq hansısa dövlətdən hədiyyə kimi yox, pulla alır.

Fransanın "Figaro" qəzeti də Prezident İlham Əliyevlə müsahibədə heç bir fakta söykənmədən Azərbaycanı xarici döyüşçülərdən istifadədə ittiham edirdi: «**Türkiyənin müdaxiləsini və Türkiyədən müxalif Suriya döyüşçülərini qəbul etməklə Siz yerli bir münaqişənin regional bir müharibəyə çevrilməsindən qorxmursunuz?**» Lakin Prezident İlham Əliyev bəyan etdi ki, bu barədə iddia edənlər tərəfindən heç bir dəlil təqdim olunmamışdır və bu, Azərbaycanı təcavüzkar kimi təqdim etmək üçün daha bir cəhddir: «**Əvvəla, Türkiyə əsla münaqişəyə cəlb edilməyib. Türkiyənin iştirakına dair heç bir dənə də sübut yoxdur. Ermənistanın Azərbaycana qarşı hücum həyata keçirdiyi ilk saatlardan Türkiyə, Türkiyənin Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana güclü siyasi dəstəyi, beynəlxalq hüququn norma və prinsiplərinə dəstəyi, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin icrasına dəstəyi ifadə ediblər və ifadə etməyə davam edirlər. Deməli, bu, birincisi. İkincisi, Azərbaycan tərəfində heç bir əcnəbi döyüşçü yoxdur. Bu, başqa bir feyk xəbərdir. Bu, bəzi ölkələrin bəzi rəsmiləri tərəfindən yayılmışdır. Lakin bu vaxtadək, toqquşmalar başlayandan sonra iyirmi gündən çox bir müddətdə bizə nə Fransadan, nə də Rusiyadan heç bir dəlil təqdim olunmamışdır. Çünki bu bəyanatı Fransa və Rusiya rəsmiləri vermişdir və biz onlardan sübut tələb etmişdik. Biz dəlilləri tələb etmişdik. Yalnız sözlər. Heç bir sübut yoxdur, heç bir dəlil yoxdur. Digər bir məsələ ondan ibarətdir ki, bizə bizimlə birgə vuruşacaq əcnəbilər lazım deyil, çünki bizim 100 min nəfərdən ibarət nizami ordumuz var. Bizim müasir avadanlığımız var, bizim 30 ildir ki, işğaldan əziyyət çəkən motivasiyalı insanlarımız var. Biz hətta tam səfərbərlik belə elan etməmişik. Bizə döyüşdə əlavə insan lazım olsa, biz daha çoxlarını çağırarıq. Odur ki, bu, Azərbaycanı təcavüzkar kimi təqdim etmək üçün daha bir cəhddir və həmçinin onlara döyüş meydanında qalib gələn Azərbaycan Ordusunun potensialını azaltmaq üçün Ermənistanın cəhdidir».**

Göründüyü kimi, jurnalist həm də Türkiyə hərbçilərinin də döyüşlərdə iştirak etdiyini iddia edir. 44 günlük müharibə günlərində Azərbaycan Türkiyənin siyasi və mənəvi dəstəyini gördü. Türkiyə dövləti, onun siyasi-hərbi rəhbərliyi bu müharibədə birmənalı şəkildə Azərbaycanın yanında oldu, ölkəmizin haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə dəstəklədi. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə, həm də sərt üslubda Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı Vətən müharibəsinin gedişində daha da möhkəmləndi, daha sarsılmaz oldu. Bütün dünya bir daha Azərbaycan-Türkiyə dostluğunu və qardaşlığının şahidi oldu.

Türkiyənin Azərbaycanı dəstəkləməsi ayrı-ayrı siyasi dairələr və erməni təəssübkeşləri tərəfindən qısqanclıqla qarşılanırdı. Çünki bu gün güclü Türkiyənin beynəlxalq məsələlərdə iştirakı və qətiyyətli mövqeyi göz önündədir. Buna görə də Türkiyənin Azərbaycana güclü siyasi dəstəyi bəzi dairələr tərəfindən narahatlıqla qarşılanırdı. Bu "France 24" televiziya kanalının sualında da özünü büruzə verirdi. «**Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian deyib ki, Türkiyənin hərbi iştirakı mövcuddur və bu da münaqişənin beynəlmiləlləşdirilməsinə gətirib çıxara bilər. O, bu məsələdə səhv edir?**», - deyə kanalın jurnalisti sual verirdi. Prezident İlham Əliyevin dəqiq və konkret cavabı isə juranilistin bu məsələ iddialarını davam etdirməsinin qarşısını aldı. «**Bəli, o, bu məsələdə səhv edir. Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur. Türkiyənin F-16-ları buradadır, lakin onlar burada birgə hərbi təlimdən sonra qalıblar. Yeri gəlmişkən, ötən il biz hava qüvvələri də daxil olmaqla, Türkiyə ilə 10 birgə hərbi təlim keçirmişik. Bu il pandemiya səbəbindən biz cəmi 2 təlim keçirdik. Belə alındı ki, hərbi təlimdən sonra bu toqquşma baş verdi. Beləliklə, biz F-16-ları yerdə saxlamağı qərara aldıq və onlar yerdədir, havada deyil»**, - deyə İlham Əliyev bildirdi.

Xatırladım ki, "France 24" televiziya kanalının Fransanın Xarici İşlər nazirinin heç bir fakta əsaslanmayan sözlərinə əsaslanan eyni məzmunlu sualını "CNN International" televiziyasının jurnalisti də Prezident İlham Əliyevə ünvanlamışdı. "Sky News" televiziya kanalının da müxbiri «**Fransızlar və ruslar deyirlər onlarda kəşfiyyat məlumatı var ki, Sizin cəbhə xəttində suriyalı muzdlulardan istifadə olunur. Siz bunu qəti şəkildə inkar edirsiniz?**», - deyə sual etmişdi. Bütün bunlar bir daha göstərir ki, Qərbin adıçəkilən KİV-ləri Prezident İlham Əliyevlə müsahibədən əvvəl ermənipərəst siyasi dairələrdən aldıqları eyni məzmunlu sifarişləri yerinə yetiriblər.

"BBC News"

"Figaro"

"Fox News"

"La Repubblica"

Prezident İlham Əliyevə ünvanlanan suallarda dünya ermənilyinin keçirdiyi qorxu hissi açıq şəkildə görünürdü

Bu müsahibələrdə görünən başqa bir məqam isə dünya ermənilərinin keçirdiyi qorxu hissinin açıq şəkildə görünməsi idi. Bu, demək olar ki, bütün müsahibələrdə İlham Əliyevə müharibənin nə qədər çəkəcəyi, o cümlədən Azərbaycanın şərtləri barədə verilən suallardan aydın görünürdü. Lakin bu sualları verərkən jurnalistlərin heç bir fakta əsaslanmayan sözlərinə əsaslanan bu suallar Azərbaycanın müharibədə qalib gəlməsini, Ermənistanın isə məğlub olmasını dəyişə bilmədi.

AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI

Qoy, bu təravətli Novruz bayramı
süfrənizi ruzi, qəlbinizi
isə xoş hislərlə doldursun.
Novruz bayramınız
mübarək olsun!



HƏRB MEYDANININ QALİBİ OLAN İLHAM ƏLİYEV İNFORMASİYA MÜHARİBƏSİNDƏ DƏ ERMƏNİSTANI MƏĞLUB ETDİ

nalistlər Azərbaycanı öz ərazilərini işğaldan azad edən ölkə kimi deyil, sanki başqa bir dövlətin torpaqlarını zəbt edən tərəf kimi göstərməyə çalışırdılar. Məsələn, "BBC News" televiziyasının müxbiri İlham Əliyevin şərtlərini ultimatum kimi şərh edərək sual verir: «**Siz bir ultimatum verirsiniz, Siz deyirsiniz ki, onlar bütün bu əraziləri qaytarmağa razılaşmalıdır və yalnız sonra danışıqlar ola bilər. Bu, danışıqlar üçün böyük bir ilkin şərtdir».** Prezident İlham Əliyev danışıqlar prosesindən xəbəri olmayan jurnalistin sualını təmkinlə cavablayır: «**Xeyr, heç də belə deyil. Çünki mənim dediyim əsas prinsiplərə əsaslanır və əsas prinsiplərdə Dağlıq Qarabağın ətrafındakı ərazilərin boşaldılması çox aydın qeyd olunub. Bu, Ermənistan üçün çox aydın mesajdır. Əfsuslar olsun ki, Ermənistan Minsk qrupunun həmsədrləri və əvvəlki Ermənistan rəhbərliyi tərəfindən işlənib hazırlanmış əsas prinsiplərlə razılaşmadı. Bu əsas prinsiplərdə deyilir ki, onlar birinci mərhələdə işğal olunmuş 5 rayonu boşaltmalıdırlar, ikinci mərhələdə isə 2 rayonu boşaltmalıdırlar. Lakin beş rayondan dördü artıq azad edilib. Əgər onlar bunu etsələr, Ağdamın bir hissəsini, Kəlbəcəri və Laçını nə vaxt boşaldacaqlarını açıq bəyan etsələr, biz dayanarıq».**

Növbəti bir sualda jurnalist sanki Ermənistanın nümayəndəsi kimi danışır: «**Lakin Siz Dağlıq Qarabağ üzərində nəzarəti güc yolu ilə ələ keçirsəniz, Sizin də eynilə eyni şeyi törədəcəyinizlə bağlı qorxular var. Ermənistan öz insanlarının etnik təmizləməyə məruz qalacağından çox ciddi qorxduğunu ifadə etmişdir».** O cümlədən, «Dağlıq Qarabağ üzərində nəzarəti ələ keçirsəniz, həqiqətən də, bir ermənin Dağlıq Qarabağda qalacağını və Azərbaycan qanunları ilə yaşayacağını gözləyirsiniz?», «**Ermənilər də, əlbəttə, iddia edirlər ki, onlar da qovulublar, onlar da illərlə qətliamların qurbanları olublar», «Burada, Azərbaycanda yaşayan ermənilərlə bağlı. Bizə verilən məlumata görə, onların çoxu qorxu içində yaşayır, ermənilər kimi açıq tanınmağı istəmədiklərinə görə soyadlarını dəyişiblər. Dağlıq Qarabağdakı ermənilər özlərinin təhlükəsiz olacaqlarına necə əmin ola bilərlər ki?» kimi suallar isə əslində beynəlxalq ictimaiyyətdə Azərbaycan dövlətinin imicinə qarayaxmaq məqsədi güdürdü.**

Müharibə günlərində dünya ermənilyini və erməni təəssübkeşlərini qorxudan başqa bir məsələ Qarabağ ermənilərinin taleyi idi. Ona görə müharibənin ilk günündən onlar Qarabağ ermənilərinin etnik təmizlənməyə məruz qalması barədə hay-həşir salmışdılar. Dünya ermənilyinin Azərbaycan barədə yanlış təsəvvür yaratmaq cəhdi Prezident İlham Əliyevə ünvanlanan suallarda öz əksini tapdı. Suallara diqqət yetirək. "CNN İnternational": «Azərbaycan hökuməti torpaqları geri götürsə, onlar etnik təmizləməyə məruz qala bilərlər». Fransanın "Figaro" qəzeti: «Mən xatırlayıram ki, 1990-cı illərin əvvəllərində Bakıda antierməni poqromları var idi. Ona görə də ermənilər inanmırlar, deyirlər ki, yaşaya bilməzlər, Azərbaycan ərazisində yaşamaq üçün, həyatları üçün qorxurlar». Almaniyanın ARD televiziyası: «Bu insanlar Sizin hərbi əməliyyatlara, dedikləri kimi etnik təmizləməyə məruz qalırlar?». "BBC News": «Onda Siz Dağlıq Qarabağda erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağına dair mütləq zəmanət verirsiniz?».

Bəli, bu suallarda həm də dünya ermənilyinin bir qorxusu var, həm də dünyada Azərbaycan haqqında yanlış təsəvvürlər yaratmaq cəhdi. Prezident İlham Əliyev bu sualların hər birini siyasi müdrikliklə, uzaqgörənliklə cavablandırdı. Ermənistanın əslində Azərbaycana qarşı etnik təmizləmə siyasəti apardığını deyən Prezident Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıların qovulduğunu dünyaya bəyan etdi. "CNN International" televiziyasına müsahibəsində Prezident İlham Əliyev faktlar əsasında hansı tərəfin etnik təmizləməyə məruz qaldığını dünyaya çatdırdı: **"Bu gün Azərbaycanda minlərlə erməni ölkəmizin müxtəlif şəhərlərində, əsasən paytaxt Bakıda yaşayır. Bizim ikinci ən böyük şəhərimiz olan Gəncəyə hücum üçün ermənilərin istifadə etdiyi uzunməsafəli dağıdıcı mərmilərdən biri olan "Smerç" erməni qadının evinə düşüb. Beləliklə, bu gün Azərbaycanda sülh və ləyaqət içində yaşayan minlərlə erməni var. Lakin bütün azərbaycanlılar Ermənistandan qovulmuşdur. Ermənistan əhalisi 99 faiz ermənilərdən ibarətdir. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Erməni prezidenti yenə də yalan deyir. Bu gün Dağlıq Qarabağda əhalinin 95 faizi ermənilər deyil, əhalinin 100 faizi ermənilərdir. Çünki orada yaşayan 25 faiz azərbaycanlı əhali Ermənistan rejimi tərəfindən etnik təmizlənməyə məruz qalmışdır".**

Xankəndinin Stepanakert adlandırılması erməni maraqlarına xidmətin təsdiqi idi

Müsahibələrdə diqqəti çəkən başqa bir məqam jurnalistlərin Xankəndini Stepanakert adlandırması idi. Nəzər yetirək. "France 24" televiziya kanalı: **«Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Stepanakertdə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb». "Sky News" televiziya kanalı: «Lakin Siz regionun paytaxtı olan Stepanakertə qarşı elə bunu edirsiniz. Siz bunu Şuşaya qarşı edirsiniz, hansı ki, dünən bir yox, iki dəfə atəşə tutulmuşdur».**

Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çox sayda erməni ailəsinin Qarabağda, o cümlədən Xankəndidə yerləşdirilib. Bu, tarixdir və inkar etmək mümkün deyil. Xankəndi adı isə yalnız sovetlər dönəmində Stepanakert olaraq dəyişdirilib. Bu addımı 1923-cü ildə Moskva tərəfindən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən Sergey Kirov atıb. Şəhər 20 mindən çox azərbaycanlının qətlinə şəxsən rəhbərlik etmiş, Bakıda sovet kommunist diktaturasını yaratmış Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılıb.

Bu yerdə diqqəti 2020-ci ildə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrə yönəltmək istəyirəm. Bu həmin müzakirələr idi ki, Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanı çıxılmaz vəziyyətə salmış və Dağlıq Qarabağla bağlı tarixi həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmışdı. Həmin debatda Prezident İlham Əliyevin nəinki keçmiş Dağlıq Qarabağ konflikti, bütövlükdə milli maraqlarımızla bağlı bütün məsələlərdə prinsipial və barışmaz mövqeyi, Nikol Paşinyan üzərində aşkar diplomatik və əzici üstünlüyü, auditoriyanı inandırmaq qabiliyyəti özünü qabarıq şəkildə göstərdi. Bütövlükdə Münhen debatı Paşinyan timsalında Ermənistanın Qarabağ diplomatiyasının tam iflasının və problemin artıq hərbi-siyasi həll mərhələsinə keçdiyinin, həmçinin təcavüzkarın kapitulyasiya edəcəyi günün uzaqda olmadığının ən güclü anonsu, xəbərçisi kimi yadda qaldı.

Həmin debatda da Prezident İlham Əliyev «Stepanakert» sözünün timsalında Dağlıq Qarabağın tarixi Azərbaycan ərazi olduğunu dünyaya çatdırmışdı. «**Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb. Çünki paytaxtın qədim adı Xankəndidir - Xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, kert Ermənistanda şəhər deməkdir, elə deyilmi? Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu, bir daha onu sübut edir ki, həmin ərazilərdə heç bir erməni tarixi irsi yoxdur və mənim başladığım məqama gəldikdə bu tarixi məsələ münaqişənin necə həll olunmalı olduğunu başa düşmək üçün mühümdür»,** - deyə İlham Əliyev bildirmişdi.

Dağlıq Qarabağ işğal altında olsa da, rəsmən Azərbaycan əraziləri kimi tanınıb. Bu mənada həmin coğrafiyada yerləşən yaşayış məskənlərinin adlarının beynəlxalq səviyyədə də Azərbaycanda adlandırıldığı kimi çəkilməsi də Azərbaycana və beynəlxalq hüquqa hörmət məsələsidir. Lakin müsahibələr zamanı məqsədyönlü şəkildə bu şəhərin Stepanakert adlandırılması baş verdi ki, bu da bir daha həmin müsahibinə götürən televiziya kanalının erməni maraqlarına xidmət etməsindən xəbər verirdi.

Almaniyanın ARD telekanalına müsahibəsində Prezident İlham Əliyev bu məsələyə qayıdaraq əsl həqiqətləri növbəti dəfə beynəlxalq auditoriyaya çatdırdı: **«Siz bilirsiniz onlar Dağlıq Qarabağın qondarma paytaxtını necə adlandırırlar? Stepanakert. Bilirsiniz kimin şərəfinə adlandırılıb? Stepan Şaumyanın. Erməni əsilli rus bolşeviki Stepan Şaumyan 1918-ci ildə azərbaycanlılara qarşı soyqırımı törətmiş cinayətkar dəstənin rəhbəri idi. Əgər bu, qədim Ermənistan ərazisi idisə, niyə Qarabağ adlandırılır? Niyə paytaxt şəhər hansısa qədim adla deyil, Stepanakert adlanır? Çünki onlar orada 200 il yaşayıblar. 1978-ci ildə orada yaşayan ermənilər Dağlıq Qarabağa gəlişlərinin 150 illiyi münasibətilə abidə ucaltdılar. Bu, tarixdir. Lakin bir daha deyirəm, onlar 200 il boyunca yaşayıblar və biz onların yaşamağını istəyirik. Mən dəfələrlə demişəm ki, biz azərbaycanlıların geri qayıtmağını və ermənilərin 200 il boyunca tarixən yaşadıqları ərazidə yaşamağını istəyirik, nəyin bahasına olursa-olsun».**

Ümumiyyətlə jurnalistlər vasitəsilə səsləndirilən əsas suallardan biri ermənilərin bu ərazilərdə guya lap qədimlərdən yaşamaları barədə olurdu! Əslində, bu sualın əsl mahiyyəti belə idi: ermənilər əvvəldən burada yaşayıblar, işğal etdikləri ərazi onlarınkı olub, niyə yerlərindən qovursunuz?!

Bəlkə də bu sualı verən onun gülünc səslənməsinin mahiyyətinə varmırdı. Ancaq cənab İlham Əliyev özünü o yerə qoymayaraq, 1805, 1813 və 1828-ci il Kürəkçay, Türkmənçay və Gülüstan müqaviləsinə əsasən ermənilərin sonralar - Qarabağ və Şuşa xanı İbrahimxəlil xanla rus generalı Sisianovun imzaladıqları müqaviləyə əsasən, bu torpaqlarda yerləşdirildiklərini, qədim Azərbaycan şəhəri İrəvanın isə onlara paytaxt kimi verildiyini söyləyərək həm də tarix dərsi keçirdi. Üstəlik, tarixi mənbənin yerini də göstərirdi: internetə girməklə həmin sənədlərlə özünüz də tanış ola bilərsiniz! Həm də başa salırdı ki, yerli əhali azərbaycanlılardır, indi isə yersiz ermənilərə yerlərini göstərirlər! «**Tarixə gəlincə, sizə deyə bilərəm ki, ermənilər bu regiona XIX əsrin əvvəlində Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında sülh sazişindən, - onu İbrahimxəlil xan və rus generalı Sisianov imzalamışlar - sonra köçürülüb və ya gətirilib»,** - deyə Prezident İlham Əliyev Almaniyanın ARD televiziya kanalına bildirir.

İlham Əliyevdən demokratiya və jurnalistika dərsi

Azad mətbuat demokratik cəmiyyətin tərkib hissəsidir. Kütləvi informasiya vasitələri cəmiyyət həyatının bütün sahələrinə təsir göstərən qüdrətli vasitələrdən biri olaraq ictimai rəyin formalaşmasında, habelə ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır. **Lakin dünyada «jurnalist etikası» deyilən bir anlayış da var.** Hər bir KİV mətbuatın ümdə prinsiplərinə sadiq olmağı bacarmalı, qərəzsiz olmalı, informasiyanın ictimai rəyə ötürülməsində vicdanlı olmalıdır.

Bu gün Azərbaycanda da KİV-in qarşısında duran mənəvi öhdəliklərdən biri medianın dəyərlərinə, təməl prinsiplərinə əməl olunmasıdır. Azərbaycan mətbuatı həqiqətən mütərəqqi ideyaların carçısı kimi çıxış edir. Media bütün konyunktur maraqlardan öndə dayanaraq, cəmiyyət qarşısındakı məsuliyyətini unutmamalıdır.

Lakin təəssüf ki, bəzi Qərb ölkələrinin media orqanlarında bunu görmək mümkün deyil. Mənəvi aşınma, deqredasiya, ümumiliklə qəbul olunmuş normalardan, peşə etikasından uzaqlaşmaq, siyasi və iqtisadi dairələrinin maraqlarına uyğun fəaliyyət göstərmək hətta tarixi ənənələri olan bir sıra xarici KİV-lər üçün adi normaya çevrilib. Görünən odur ki, bizə demokratiya dərsi keçmək istəyən, bizdən demokratiya tələb tələb etmək xülyasından əl çəkmək istəməyən cəmiyyətlər əvvəlcə öz gözlərində olan tiri görməlidirlər.

Həmin KİV-lərin Ermənipərəst dairələrin ruporu rolunu oynadıqları Prezident İlham Əliyevlə müsahibələr zamanı da özünü göstərdi. Lakin İlham Əliyev onların erməni maraqlarının tərənnümçüsü olan suallarının hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verdi, məsələnin mahiyyətini səbirlə izah etdi, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini və dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirdi.

Bu müsahibələr zamanı Azərbaycanı ittiham edən jurnalistlərin heç biri ortaya fakt qoya bilmədi. Amma İlham Əliyev onları fakt qarşısında qoydu. Məsələn, ABŞ-ın "Fox News" televiziyasını müxbiri suallarının birində mövzudan yayınaraq belə bir iddia ilə çıxış etdi ki, Azərbaycanın daxilində insan haqlarının pozulması, söz azadlığının sıxışdırılması ilə bağlı bəzi ittihamlar var və müharibənin başlanması qanun pozuntuları hesab olunan hallardan diqqəti yayındırmaq üçündür.

Korrupsiyanın hər yerdə olduğunu və Azərbaycanda bununla mübarizə aparıldığını deyən Prezident İlham Əliyev həmçinin diqqəti ABŞ-a çəkdi, orada mühüm vəzifələri ata və oğulun tutduğunu jurnalistin diqqətinə çatdırdı. «**Buş ailəsi, Klinton ailəsi, ər və arvad, Kennedi ailəsi», - deyə İlham Əliyev bildirdi. «Lakin onların hamısı demokratik və şəffaf şəkildə seçilmişdilər»** sözlərinə İlham Əliyevin **«Bəli, xüsusilə ABŞ Ali Məhkəməsinin qərarı ilə seçilmiş Buş»** cavabı jurnalisti çıxılmaz vəziyyətə saldı və onun Azərbaycan Prezidentinin ABŞ siyasətini bilməsini etiraf etməsindən başqa bir yolu qalmadı.

Eyni vəziyyət Almaniyanın ARD televiziyasına müsahibə zamanı da yaşanı. Alman jurnalist də Azərbaycanda insan haqlarının pozulduğunu iddia edərək, müharibəni məhz buna görə başladığı barədə cəfəng ittiham irəli sürdü: «**Mən bildiyimə görə, oktyabrın 1-də Azərbaycanda bir nəfər sülh tələb etdiyinə görə həbs olunub. Bəzi insan haqları ekspertləri, müdafiəçiləri deyirlər ki, Siz bu müharibəyə həm də xalqı ətrafınızda birləşdirmək, demokratiya və insan haqları ilə bağlı ölkədəki problemlərdən diqqəti yayındırmaq üçün başlamısınız».**

Əvvəldə qeyd etdiyim kimi, jurnalistin ən güclü silahı faktdır. Amma alman jurnalist də İlham Əliyevin qarşısına yalan faktlarla çıxmışdı və Prezident İlham Əliyev həmin adamın adını soruşduqda çıxılmaz vəziyyətə düşdü. «Beləliklə, biz bu sualı etibarsız hesab edə bilərik, çünki sizdə ad yoxdur», - deyə İlham Əliyev həm də həmin müxbirə jurnalistika dərsi keçdi.

Eyni zamanda, Prezident İlham Əliyev müsahibə zamanı Azərbaycana qarşı əsassız iddia edən siyasi mərkəzlərə də demokratiya dərsi keçdi. Bu gün özünü demokratiyanın beşiyi sayan əksər Avropa ölkələrində insan hüquqları sahəsində vəziyyət heç də iddia olunduğu kimi deyil. Heç bir partiya, heç bir təşkilat icazəsiz şəkildə mitinq keçirə bilməz. İcazəsiz mitinqlərin atların və itlərin köməyin ilə dağıdılması özünü demokratiyanın beşiyi sayan bir çox Qərb dövlətinin acı mənzərəsidir. Son olaraq Fransada «sarı jiletlilərin» mitinqlərini buna misal göstərmək olar. İlham Əliyev bunu nəzərdə tutaraq **«Lakin etirazçılar qətlə yetirilirlər, küçədə etirazçıları qətlə yetirirlər – 10 nəfər qətlə yetirilmişdi. Biz sizin Avropada etirazçıları necə döydüyünüzə baxırıq, siz onları atlarla döyürsünüz, itləri gətirirsiniz və bu, demokratiya hesab olunur»,** - deməklə Azərbaycanda demokratiyanın pozulduğunu iddia edən jurnalisti fakt qarşısında qoydu.

Həmçinin alman jurnalistin Azərbaycanda türk əsgərlərini görməsi məsələsində də İlham Əliyev ona jurnalistika dərsi keçdi. Onun Bakıda Bakıda şəhərində küçədə türk əsgəri görməsinə Prezidentin «İndi burada alman əsgərləri də ola bilər» cavabı jurnalisti sözün əsl mənasında çıxılmaz vəziyyətə saldı.

Azərbaycan Prezidenti erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında da tutarlı zərbə vurdu

Bu müsahibələrdə bəzi Qərb KİV-ləri tərəfindən yalnız erməni maraqlarının nəzərə alındığını göstərən başqa bir məqam isə ondan ibarətdir ki, jurnalistlər Azərbaycanın beynəlxalq hüquqla təsbit olunan mövqeləri, Ermənistanın müharibə cinayətləri barədə bir dəfə də olsun sual ünvanlamadılar.

Azərbaycan-Ermənistan münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə bağlı 1994-cü ildən bəri aparılan danışıqlar məhz işğalçıya təsir göstərilməməsi səbəbindən nəticəsiz qaldı. O cümlədən, BMT Təhlükəsizlik Şurasının 1993-cü il ərzində qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr yerinə yetirilməmiş qalıb. Nə BMT, nə də digər təşkilatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğaldan azad edilməsinə maraq göstərmədilər. Müsahibələr zamanı jurnalistlərin heç biri bu barədə bir sual belə ünvanlamadı, BMT-nin məlum 4 qətnaməsinin yerinə yetirilməməsi ilə maraqlanmadı. Çünki onların qarşılarına qoyulan vəzifələr yalnız və yalnız Azərbaycanın uğurlu hərbi əməliyyatlarına qara yaxmaq, öz maraqlarını təmin etməsi barədə dünyada yanlış təəssürat yaratmaq, işğalçı dövlət kimi təqdim etmək idi.

Müsahibələrin birində ABŞ-ın "Fox News" televiziyasının jurnalisti belə sual verir: «**Cənab Prezident, nəyə görə Siz qeyd etdiyiniz kimi, BMT-nin, Rusiyanın, İranın, Amerika Birləşmiş Ştatlarının, Avropa İttifaqının, NATO-nun çağırışlarına müqavimət göstərirsiniz? Atəşkəs üçün çağırışlara nəyə görə müqavimət göstərirsiniz və faktiki olaraq elan olunmuş atəşkəsi pozursunuz?».** Sualın məzmunundan göründüyü kimi, sifariş ermənipərəst dairələrdən gəlib və onları Azərbaycan torpaqlarının işğalı faktı qətiyyən maraqlandırmır, əvəzində isə Azərbaycan münaqişənin həllinə heç bir töhfə verməyən siyasi mərkəzlərin çağırışlarına müqavimət göstərməkdə, atəşkəsi pozmaqda ittiham olunur.

44 günlük müharibədə Ermənistan müharibə əleyhinə cinayətlər törətdi. Gəncə, Bərdə şəhərləri ballistik və qadağan olunmuş silahlarla atəşə tutuldu, mülki əhali amansız şəkildə qətlə yetirildi. O cümlədən, cəbhə xəttindən aralıda yerləşən digər şəhər və rayonlar, mülki insanlar və obyektlər Ermənistan tərəfindən davamlı raket atəşinə tutuldu. Tərtər şəhəri Böyük Vətən müharibəsinin dövrünün şəhərlərinə bənzəyirdi.

Amma adları çəkilən Qərb KİV-ləri bu barədə bir dənə də olsun sual vermədilər. Əvəzində isə demək olar ki, hamısı hərbi təlimlərdən sonra Gəncədə qalmış Türkiyənin F-16 hərbi təyyarələri, Azərbaycan Ordusunun hərbi əməliyyatlarda hücum dronlarından istifadə etməsi qeyd olunan Qərb KİV-lərinin suallarında yer alırdı.

Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziyası Prezident İlham Əliyevdən müsahibəni oktyabrın 25-də götürmüşdü. Buna qədər Gəncə şəhəri artıq 3 dəfə bombardman edilmişdi. Amma jurnalist «**Lakin, cənab Prezident, biz Dağlıq Qarabağın paytaxtının görüntüləri olan videoları, səhnələri görmüşük, orada bütün əhali zirzəmilərdə yaşamaq məcburiyyətindədir, hər 20 dəqiqədən bir artilleriya səsləri eşidilir, mülki şəxslərin yaşadığı şəhər dağılıb»** deməklə Ermənistanın maraqlını müdafiə etdi.

Yaxud Fransanın "Figaro" qəzetinin əməkdaşı sualdan çox ittiham olan belə bir fikir söyləyir: «Onlar Gəncəni ona görə bombardman ediblər ki, Gəncədə Türkiyənin bir neçə F-16 qırıcı təyyarəsi var idi və bu F-16 qırıcı təyyarələrdən biri erməni təyyarəsini vurmuşdur. Onlar buna görə Gəncəni bombardman etdiyini deyirlər». Buna qədər Gəncə 3 dəfə bombardman edilmişdi və raket zərbələrinin şəhərin məhz mərkəzi hissələrinə endirilməsi göstərirdi ki, Ermənistanın hədəfi yalnız mülki insanlar olmuşdur. Amma jurnalisti Gəncə şəhərində mülki insanların qətliamı qətiyyət maraqlandırmır və bu barədə heç bir sual ünvanlamır.

Qeyd edim ki, eyni vaxtda Ermənistanın Baş naziri Paşinyan da xarici KİV-ə müsahibələr verirdi. Lakin Paşinyan hər dəfə danışdıqca özünü və ölkəsini biabır etdi. Bununla həm də Ermənistanın informasiya müharibəsindəki məğlubiyyətini də təmin etdi.

Beləliklə, döyüş meydanının qalibi olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalib oldu. Ən mühümü odur ki, Azərbaycan Prezidenti həm də erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarına tutarlı zərbə vurdu. Bununla da həm Ermənistanın, həm dünya ermənilyinin, həm də erməni lobbisinin Azərbaycana qarşı informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

Ziyad SƏMƏDZADƏ,
AMEA-nın həqiqi üzvü,
Milli Məclisin deputatı

Teymur Əhmədov elmdə və mətbuatda silinməz iz, ölməz söz qoyub getdi

"Respublika" qəzetinin baş redaktoru, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun vəfatı onu tanıyanları dərindən kədərləndirdi. Görkəmli ədəbiyyatşünas, cəsarətli redaktor və jurnalist, vətənpərvər ziyalı, xeyirxah, sadə, gülərüz, nikbin, səmimi və nurlu insan... Biz Teymur müəllimi belə tanıyırdıq və o, yaddaşımızda belə də qalacaq.

İyirmi beş ildən çox baş redaktoru olduğu "Respublika" qəzetinin Azərbaycan mətbuat məkanında sayılıb-seçilməsi məhz Teymur Əhmədovun xidmətidir. O, həmçinin jurnalist olaraq aktual və cəsarətli yazıları ilə müasir mətbuatımızda silinməz iz qoyub.

AZƏRTAC görkəmli alim və redaktor, 90 illik ömrünün 75 ili elm və mətbuatla sıx bağlı olmuş Teymur Əhmədovun zəngin və mənalı ömrünün bəzi məqamlarına nəzər salır.

Teymur Əkbər oğlu Əhmədov 1930-cu il dekabrın 25-də Şəmkir şəhərində anadan olub. Onun altı yaşı olanda valideynləri vaxtilə deportasiya olunduqları İrəvana qayıdıblar. Ədəbiyyata böyük maraq göstərən Teymur Əhmədov Bakı Dövlət Universitetinin filologiya fakültəsində, Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alıb. Sovet dövründə "millətçi" kimi qələmə verilən, çoxlarının adını belə çəkməyə cəsarət etmədiyi ictimai-siyasi xadim Nəriman Nərimanovun həyat və yaradıcılığını tədqiq obyekti seçib. Uzun illərin gərgin və inadlı axtarışları sanballı elmi əsərlərin - "Nəriman Nərimanovun dramaturgiyası", "Nəriman Nərimanov", "Nəriman Nərimanovun yaradıcılıq yolu" monoqrafiyalarının meydana gəlməsi ilə nəticələnib. Nəriman Nərimanovu professor Teymur Əhmədov kimi obyektiv dəyərləndirən, onun həyat və fəaliyyətinin araşdırılmasına az qala bütün ömrünü sərf edən ikinci tədqiqatçı-alim yoxdur.

Teymur müəllimin elmi, publisistik və ədəbi-bədii yaradıcılığı çoxşaxəlidir. O, həmçinin Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Qılman İlkin və daha neçə-neçə görkəmli şair və yazıçıların yaradıcılığı haqqında öz sözünü deyib. AMEA-nın Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik etdiyi illərdə İranda yaşayan azərbaycanlı ədiblərin bir çoxunu ictimaiyyətə tanıdıb.

Fədakar alim və publisist Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərini açıb göstərən, ermənilərin xalqımıza qarşı yürütdüyü soyqırımı, işğalçılıq və terrorçuluq siyasətini ifşa edən çoxsaylı əsərlərin də müəllifidir. Onların arasında "Vedibasarın qanlı-qadalı günləri", "Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər)" kitablarını qeyd etmək kifayətdir.

Nə yaxşı ki Teymur müəllimə Vətən müharibəsinin Qələbə sevincini yaşamaq, düşməndən qisas alındığı günü görmək nəsib oldu.

Teymur Əhmədov 1990-cı illərdə redaktoru olduğu "Vətən səsi" qəzetini həqiqətən Azərbaycan xalqının haqq səsinə çevirə bilmişdi. Mətbuatımızda dərin iz qoymuş "Füyuzat" jurnalının 100 il sonra – 2007-ci ildən başlayaraq yenidən nəşr olunması onun daha bir əvəzsiz xidmətidir.

Onun elmi-ədəbi fəaliyyətində "Mirzə İbrahimov" monoqrafiyası, "Azərbaycan sovet yazıçıları (ədəbi sorğu kitabı)", "Azərbaycan yazıçıları (ensiklopedik məlumat kitabı)", habelə Nəriman Nərimanov, Süleyman Rüstəm, Səməd Vurğun, Abdulla Şaiq, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, Mirzə İbrahimov və Mir Cəlal Paşayev haqqında kitab-albomlar da xüsusi yer tutur.

Professor Teymur Əhmədovun milli mətbuatımızın inkişafındakı xidmətləri "Tərəqqi" medalı, "Şöhrət" ordeni ilə qiymətləndirilib. O, Həsən bəy Zərdabi mükafatına, Beynəlxalq Atatürk Mükafatına layiq görülüb... və bir də əhatəsində olduğu insanların, dostların sevgisini qazanıb.

Biz belə bir insanı, alimi, jurnalisti itirdik. Teymur müəllim elmdə də, mətbuatda da, ürəklərdə də iz qoyub, ölməz söz qoyub, xoş xatirələr qoyub getdi...

Tikinti materiallarının istehsalı 13,2 faiz artıb

Cari ilin yanvar-fevral aylarında tikinti materiallarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 82 milyon manat olmaqla, ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,2 faiz artıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, bu dövr ərzində tikinti gipsinin istehsalı 4 dəfə, hörmə üçün hazır beton qarışığının istehsalı 19,5 faiz, tikinti əhənginin istehsalı 18,4 faiz, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərinin istehsalı 14,7 faiz artıb. Həmçinin tikinti kərpicinin istehsalı 7,6 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 20,4 faiz, emal edilmiş mərmər, travertin, alebastr və onlardan olan məmulatların istehsalı 65,7 faiz, asfaltın istehsalı isə 77,6 faiz azalıb.

23,6 milyon dollarlıq polietilen ixraca göndərilib

Yanvar-fevral aylarında Azərbaycandan 24,3 min ton polietilen ixrac olunub.

Dövlət Gömrük Komitəsindən (DGK) verilən məlumata görə, ixrac olunan polietilenin dəyəri isə 23,6 milyon ABŞ dolları təşkil edib.

Xatırladaq ki, 2020-ci ilin eyni aylarında 13,4 milyon dollarlıq 19,1 min ton polietilen ixrac olunub.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində yüksəksıxlıqlı polietilen zavodu tikilib. Zavod gündəlik 330 ton, illik 120 min ton istehsal gücünə malikdir. Məhsulun 25 faizi daxili bazar, 75 faizi isə ixrac üçün nəzərdə tutulub.

Cari ildə 4,1 milyard kilovat/saat əmtəəlik elektrik enerjisi istehsal edilib

Yanvar-fevral aylarında Azərbaycanda 4 milyard 279 milyon kilovat/saat elektrik enerjisi istehsal edilib. Bu göstərici 2020-ci ilin müvafiq ayları ilə müqayisədə 1,7 faiz azdır. Əmtəəlik elektrik enerjisi isə 4 milyard 141,6 milyon kilovat/saat olub.

Həmin həcmin 3 milyard 987,2 milyon kilovat/saatı istilik, 134,6 milyon kilovat/saatı su, 14,5 milyon kilovat/saatı külək, 5,3 milyon kilovat/saatı isə günəş elektrik stansiyalarında istehsal edilib.

Azərbaycan bu il neft ixracından 2 milyard dollar gəlir əldə edib

2021-ci ilin yanvar-fevral aylarında Azərbaycan xarici ölkələrə 5 milyon 694 min ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edib.

İxrac edilmiş bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsullarının ümumi dəyəri 2 045 milyard ABŞ dolları təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə neft məhsullarının həcmi 0.3 % artıb, dəyəri isə 25% azalıb.

Bu il ən çox İtaliyaya məhsul göndərilib

Cari ilin yanvar-fevral aylarında Azərbaycan ən çox İtaliyaya məhsul ixrac edib.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, iki ayda ixracda əsas ölkələrin siyahısında ilk sırada İtaliya olmaqla, Türkiyə və Hindistan qərarlaşıb. İtaliyaya ixrac 1 milyard 46,9 milyon ABŞ dolları, Türkiyəyə 302,6 milyon dollar, Hindistana isə 218,5 milyon dollar dəyərindədir.

Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin siyahısında isə ilk üçlükdə İtaliya, Türkiyə və Rusiya dayanır. İtaliya ilə ticarət dövriyyəsi 1 milyard 97,4 milyon dollar, Türkiyə ilə 541,1 milyon dollar, Rusiya ilə 332,5 milyon dollar təşkil edib.

Xaricdən 6 milyon dollarlıq düyü alınıb

Bu ilin yanvar-fevral ayları ərzində Azərbaycana 6 milyon 658 min ABŞ dolları dəyərində 9 min 657 ton düyü idxal edilib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 1 milyon 873 min ABŞ dolları (39%) və ya 1 798 ton (23%) artım deməkdir.

Hesabat dövründə düyü idxalı Azərbaycanın ümumi idxalının 0,41%-ni təşkil edib.

EL-OBA BAYRAMLARI

Novruz ən kütləvi və həyati el bayramıdır. İl təzələnir, təbiətin gözəldən gözəl çağı olan ilk bahar gəlir. İnsan da yarandığı gündən gözəllik, yar-yaraşıq vurğunu olub, gözəllik onun üçün ilahi bir tələbə çevrilib. Hətta belə bir inanc da var ki, bir bayramın görkəmi yeddi bayram təkrar olunur. Yeniləşmək eşqi olmazsa, inkişaf da olmaz. Yeni ildə hər şey yeni olmasa da, təzə gələn ilin özü kimi təzə, tər və təmiz görünməlidir. İlk baharın gəlişi ilə insanların nəinki məişətində, münasibətində də yenilik yaranır. Çünki ilk bahar qışdan yığılıb qalmış bütün çirkabı leysan, sel-su ilə təmizlədiyi vaxtda ürəklərdəki xırıltını da təmizləmək məqamı çatır. Yaşamağa əngəl olan köhnə atılır, yeni münasibətlər yaranır.

Yeni gün bu qədər müqəddəsdir. Bəs, biz niyə ona Novruz deyirik, bizim Novruzdan savayı bayramlarımız olmayıbmı? Gül nə üçün bütün hədiyyələrin tacıdır? Nə üçün şərab içilərkən sağlıq deyilir? Nə üçün insanlarda bir-birinin üstünə və səfərə çıxanın ardınca su atmaq adəti var? Adda-budda keçirdiyimiz məhsul bayramlarının kökü hardan gəlir? Nəhayət, nə üçün xristianlar İsa peyğəmbərin mövlud gününü qışın girməsi ilə keçirirlər? Belə "nə üçün"lərin sayını artırmaq olar.

Xüsusən "Bəy İnal" tarixi romanım çapdan çıxandan sonra yuxarıdakı "nə üçün"ləri çox eşitmişəm. Bəri başdan deyim ki, bayram şəklinə düşmüş bu adət-ənənələrin hamısı el yaradıcılığıdır. Hərəsinin də öz milli adı olub və bu gün də var. Ancaq yazın gəlişi "Novruz" kimi terminləşib. O dövrün ən möhtəşəm dini olan zərdüştlükdən gəlir. Məlumdur ki, Makedoniyalı İsgəndər müqəddəs şəhər Təxti-Cəmşidi aldıqdan sonra sərxoş vaxtında bir gözəlin şıltaq xahişi ilə yandırarkən zərdüştlərin on iki min öküz dərisinə yazılmış baş kitabı "Avesta" məhv olmuşdur. Bu kitabın kiçik izahı və hafizələrdə qalan hissələri Ovsanilər sülaləsi dövründə qədim pəhləvi dilində kitab halına salınmışdır. Ona "Zənd-Avesta" da deyirlər. O da məlumdur ki, yaxın Şərqin böyük hissəsi, o cümlədən bizim Azərbaycan da Sasani şəhərinin hökmranlığı altında olmuşdur. Bütün yazı-pozu qədim pəhləvi dilində getmişdir. "Novruz" adı da ordan yadigar qalıb, bir sıra millətlər üçün terminləşmişdir. Novruzdan başqa "Mehrikan" , "Səda" terminləri də olmuşdur ki, indi "Məhsul bayramı" və qışın gəlişi kimi yad edilir.

Bu bayramlar ulu əcdadlarımızın əkinçiliklə, heyvandarlıqla məşğul olduqları dövrlərdə yaranmışdır. O dövrlərdə ki, nə əhəmənilər, nə ərşakilər, nə də sasanilər vardı. Bayramı xalq yaradıb, xalq da yaşatmışdır. Yaxın keçmişə qədər Novruzdan sonra qızıl güllər açanda, payızda torpağa basdırılıb, küplərə doldurulmuş şərab yetişəndə gül bayramı keçirilərmiş. Bir-birini təzə şəraba qonaq edənlər öz arzu və istəklərini deyirmişlər. Sonra yayın ən isti günündə (avqustda) Abrazikan (Suatma) bayramı sevilib. İndi məhsul bayramı keçirilirsə də, onun pəhləvi adı – "Mehrikan" unudulmuşdur. Əcdadlarımız qışın gəlişi ilə baharı da arzulamışlar, təzə ulduz doğanda "Səda" bayramı edib, qışı çillələrə bölmüşlər. Qışın ilk günündən başlayaraq gündüz dəqiqə-dəqiqə uzanır. Təzə ulduzun doğması "Şumer-Babil" tarixindən həyatın, hətta hökmdarların da təzələnməsi etiqadı ilə məlumdur. M.F.Axundovun "Aldanmış kəvakib" əsəri də həmin etiqadı yada salır. Xristianlar qədim "Səda" bayramını Mövlud günü kimi indiyədək bayram edirlər və təqvimdə təbii olaraq yeni ili qışın girməsi ilə hesablayırlar. Yeni təqvimin başlanması artıq dünya bayramına çevrilmişdir.

El bayramlarımızın, mən bilən, qısaca tarixi belədir. Hər şey zamanın hökmünə tabedir.

Bu əziz Novruz bayramı günündə arzu edirəm ki, bütün qədim milli bayramlarımız bərpa olunsun. Gül bayramı da, Suatma bayramı da, Məhsul bayramı da elliklə və həvəslə keçirilsin. Ən gözəl arzu bir-birini təbrik etməkdir.



"Societe de Courtage" Sığorta və Təkrarsığorta Brokeri MMC-nin 31 dekabr 2020-ci il tarixinə BALANS HESABATI

(manatla)

AKTİVLƏR	Hesabat dövrünün əvvəlinə	Hesabat dövrünün sonuna
I. UZUNMÜDDƏTLİ AKTİVLƏR		
Torpaq, tikili və avadanlıq	6 873,60	2 000,00
Torpaq, tikili və avadanlıqla bağlı məsrəflərin kapitallaşdırılması		
Daşınmaz əmlaka investisiyalar		
Qeyri-maddi aktivlər	9 154,60	8 725,14
Təxirə salınmış vergi aktivləri		
Uzunmüddətli debitor borcları		
Uzunmüddətli maliyyə aktivləri:		
dövlət qiymətli kağızları		
qeyri-dövlət qiymətli kağızları		
sair maliyyə aktivləri		
İştirak payı metodu ilə uçota alınmış investisiyalar		
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		
Sair aktivlər	1 688,19	2 031,69
Cəmi uzunmüddətli aktivlər	**17 716,39**	**12 756,83**
II. QISAMÜDDƏTLİ AKTİVLƏR		
Ehtiyatlar		
Debitor borcları:	**112 648,85**	**90 146,47**
birbaşa sığorta üzrə		
təkrarsığorta əməliyyatları üzrə:	**90 049,37**	**89 453,37**
təkrarsığortaçılar üzrə	4 734,57	4 734,57
təkrarsığortalılar üzrə	85 314,80	84 718,80
asılı təşkilatlar üzrə		
büdcə üzrə:	**3 318,11**	
iddia tələbləri üzrə		
işçi heyəti üzrə		
sığortalılara verilən borclar üzrə		
sair debitorlar	**19 281,37**	**693,10**
Pul vəsaitləri və onların ekvivalentləri:	**226 212,06**	**175 860,45**
kassa		
hesablaşma hesabı	33 412,86	25 404,58
valyuta hesabı	192 791,04	150 445,16
depozit hesablar		
sair pul vəsaitləri	8,16	10,71
Qısamüddətli maliyyə aktivləri:		
dövlət qiymətli kağızları		
qeyri-dövlət qiymətli kağızları		
